Ədalət.- 2021.- 5 noyabr. S. 8.

# İşğalçı Ermənistanın bir silahı da terrordur



Xüsusi olaraq qeyd edilməlidir ki, ermənilərdən fərqli olaraq Azərbaycanın dövlətçilik tarixində, xalq adət-ənənələrində, milli-mənəvi xüsusiyyətlərində məqsədə nail olmaq üçün terror yolu ilə günahsız insanları qətlə yetirməklə bağlı heç bir fakt mövcud deyildir.

Son zamanlar Ermənistan mətbuatında ən çox yayılan və dünyanın müxtəlif ölkələrində erməniyönümlü media tərəfindən həvəslə tirajlanan xəbərlərdən biri də Ermənistanla Azərbaycan arasında baş verən müharibəyə terror qruplaşmalarının cəlb olunmasıdır. Guya Yaxın Şərqdən olan terrorçular cəbhədə Azərbaycan tərəfdən döyüşür. Bu iddialarına haqq qazandırmaq üçün Ermənistan hakimiyyəti PKK terrorçularına Azərbaycan Silahlı Qüvvələrinə məxsus geyim formalarını da geyindirir.

Ermənilərin Azərbaycan tərəfdən döyüşən "terrorçu" kimi təqdim etdiklərindən birinin Livan, digərinin isə Suriya ermənisi olması ekspertlər tərəfindən sübut olunmuşdur.

Terrora qarşı mübarizədə bu qədər həssas davranan və öz resurslarından maksimum istifadə edən Azərbaycana qarşı "terrorçulardan istifadə edir" kimi iddianın qaldırılması sadəcə erməni xislətinin başqa bir təzahür formasıdır. Ermənistanın "Azərbaycan tərəfindən terrorçular döyüşür" təbliğatı cəbhədəki uğursuzluqlarına haqq qazandırmağa və məğlubiyyətlərini ört-basdır etməyə hesablanıb.

Terror qruplaşmalarının məqsədi Türkiyə və Azərbaycanın əzəli torpaqlarında "Böyük Ermənistan" dövlətinin yaradılması istiqamətində öz həmyerlilərinə "kömək etməkdir". Bu terror qruplarında təmsil olunan bəzi şəxslərin adlarının ermənilər tərəfindən "qəhrəman" kimi "əbədiləşdirilməsi" Ermənistan dövlətinin terrorizmi dəstəkləməsi faktını əyani surətdə təsdiq edir. Onu da qeyd edək ki, yalnız 1989-1994-cü illərdə erməni separatçıları və terrorçuları Azərbaycan ərazisində 373 terror aktı törədib. Bu terror aktları 1568 nəfərin qətlə yetirilməsi və 1808 nəfərin yaralanması ilə nəticələnmişdir. Təkcə Xocalıda törədilmiş soyqırımı aktı nəticəsində 613 nəfər həlak, 478 nəfər əlil olmuş, 1275 nəfər erməni əsirliyinin bütün dəhşətlərindən keçmiş, 8 ailə bütünlüklə məhv edilmiş, 56 nəfər xüsusi qəddarlıqla diri-diri yandırılmış, 150 nəfər isə itkin düşmüşdür. Oxşar hadisələr eyni amansızlıqla Azərbaycanın digər işğal olunmuş rayonlarında da reallaşdırılmışdır. Eyni zamanda Azərbaycan Respublikası və xarici ölkələrin məhkəmələri prosedur qaydada sübut etmişdir ki, 373 terror aktından 32-si işğal olunmuş Azərbaycan torpaqlarından 100 kilometrlərlə uzaqlıqda törədilib.

Ermənistanın terrorçuluğunu sübut etmək üçün çoxsaylı tarixi məqamlar olsa da, son bir neçə gün ərzində Azərbaycan əhalisində qorxu, çaşqınlıq hissi yaratmaq məqsədilə onların dinc əhalini və mülk infrastrukturu atəşə tutması coğrafiyasına nəzər yetirmək kifayət edər ki, erməni terrorizminin mahiyyəti və təhlükəliliyi barədə yetərincə təsəvvür yaransın. Çünki atəşə məruz qalan yaşayış məntəqələrimizin yaxınlığında Ordumuz tərəfindən hər hansı bir döyüş mövqeyinin seçilməməsi, həmin yaşayış məntəqələrimizin 90 faizinin döyüş zonasından yüz kilometrlərlə uzaq olması belə düşməni çirkin əməldən çəkindirmədi. Azərbaycan Respublikası Baş Prokurorluğunun məlumatına əsasən, sentyabrın 27-dən bu günə qədər Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinə ümumilikdə 27 mindən artıq artilleriya, 218 raket zərbəsi endirilmişdir. Nəticədə 91 nəfər həlak olmuş, 396 nəfər yaralanmış, 2242 yaşayış evi, 92 çoxmənzilli yaşayış məntəqəsi və 423 mülki obyekt və 13 kommunal infrastruktura ziyan dəymişdir. Bütün bu faktları inkar etməklə yanaşı, Ermənistan tərəfi məqsədyönlü şəkildə öz ordusunun atəş mövqelərini yaşayış məntəqələrində, yaxud da onlara yaxın ərazilərdə yerləşdirməklə öz əhalisi arasında mülki insanların daha çox zərər çəkməsinə nail olmaq və bundan "Azərbaycan ordusunun fəaliyyəti terrorçuların əməlləri ilə üst-üstə düşür", - deyə öz təbliğat işində bəhrələnmək istəyir. Lakin Azərbaycan Ordusunun yüksək dəqiqliyə malik silahlardan nöqtə zərbələri endirməsi mülki erməni vətəndaşları arasında itkiləri minimuma endirdi. Bununla da Ermənistanın məkirli niyyəti boşa çıxdı, erməni təbliğatının bu istiqamətdə fəaliyyəti heçə endi.

Əgər dünya birliyi terrorizmlə mübarizəyə həqiqətən ədalətlə yanaşırsa, mütləq erməni terrorizminin yaratdığı təhdidləri və törədəcəyi fəsadları nəzərdən qaçırmamalıdır.

**İsa İSMAYILOV,**
**Müdafiə Nazirliyinin Mətbuat Xidməti,**
**Xəyal İSKƏNDƏROV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyası**